# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya Kolleci

# “Azərbaycan iqtisadiyyatı”

fənninin

# PROQRAMI

040401 - “ Mühasibat uçotu ”

040410 - “Bələdiyyə təsərrüfatının təşkili”

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 1 )

**Bakı-2017**

**Tərtib etdi:**

Bakı İdarəetməvə Texnologiya Kollecinin müəllimi — Zeynalova Reyhan Feyruz

**Redaktor:**

Bakı İdarəetməvə Texnologiya Kollecinin müəllimi — Qəhrəmanova Yaqut  Bəşir

**Rəy verənlər:**

Bakı İdarəetməvə Texnologiya Kollecinin müəllimi — 1. Nuriyeva Nabad Məhrəddin

Azərbaycan Texniki Universitetinin nəzdində, Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinin
“İqtisadiyyat və poçt rabitəsi” f/b-nin sədri — 2. Əliyeva Münəvvər Mirzəli

# İZAHAT VƏRƏQI

SSRİ-nin süqutunun ardınca, 1991-ci ilin axırlarında, tarix səhnəsində beynəlxalq iqtisadi və siyasi stabillik ünsürü olmağa başlayan Azərbaycanda sərbəst bazar şərtlərinə görə bir iqtisadi sistem formalaşdırılmağa başlanıldı.

1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi" ilə başlamış Azərbaycanda sərmayə qoyuluşu, xüsusilə enerji sektoruna xarici sərmayə investisiyaları uğurlu şəkildə inkişaf edir. 2003-cü ildən etibarən isə digər sektorlara istiqamətləndirilmiş yerli və xarici investisiyanın təşviqi məqsədi ilə inkişaf proqramları həyata keçirilməyə başlandı. Azərbaycanın müstəqillik qazanmasından sonra siyasi, sosial və iqtisadi böyümə, inkişaf və müstəqillik nöqteyi nəzərindən müsbət mənada mühüm addımlar atdığı müşahidə edilir. Azərbaycan XXI əsrdə dünyanın inkişaf etmiş, sivil, güclü bir dövləti olmağa namizəddir. Azərbaycanda stabil inkişaf edən bir iqtisadiyyat formalaşdırılsa da, əlbəttə yenə də daha çox və əhəmiyyətli bir sıra addımların atılması vacibdir. Keçid dövrü başa çatsa da, dünya iqtisadi məkanına inteqrasiya üçün bir sıra mühüm işlərin görülməsi zəruri və vacibdir.

Bütün bunları özündə əks etdirən Azərbaycan iqtisadiyyatı fənninin proqramı tələbələrə bu istiqamətdə bələdçilik edir.

Fənnin proqramı "Mühasibat uçotu", "Bələdiyyə təsərrüfatının təşkili" ixtisaslarında tədris edilir.Fənnin öyrənilməsinə 60 saat (30 saat mühazirə və 30 saat məşğələ) vaxt ayrılmışdır.

Proqramın başlıca məqsədi tələbələrin nəzəri biliyinin möhkəmləndirilməsindən ibarətdir.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Giriş.Azərbaycan iqtisadiyyatı fənninin predmeti və vəzifələri | 2 | 2 |
| 2. | Azərbaycanda iqtisadi fikir tarixinə dair Azərbaycanın müstəqilliyəqədərki iqtisadiyyatının vəziyyəti | 2 | 2 |
| 3. | Azərbaycanın keçid dövrü iqtisadiyyatı.Mülkiyyət münasıbətlərinin yenidən qurulması | 2 | 2 |
| 4. | Özəlləşdirmə və sahibkarlığın inkişafı. Azərbaycanın yeni iqtisadi sistemi.İqtisadiyyatın yeni idarəetmə sistemi | 2 | 2 |
| 5. | Milli sərvətin strukturu və mahiyyəti.Milli gəlir. | 2 | 2 |
| 6. | Azərbaycanın mikroiqtisadiyyatı.Gəlirlər və onların yenidən bölgüsü. Əmək haqqı | 2 | 2 |
| 7. | Respublikanın istehsal və sosial infrastrukturu.Böyuk ipək yolunun bərpası | 2 | 2 |
| 8. | TRASECA proqramı və regionda nəqliyyat kompleksinin inkişafı. | 2 | 2 |
| 9. | Azərbaycanın maliyyə sistemi.Dövlət büdcəsi və onun strukturu | 2 | 2 |
| 10. | Bank sektorunun formalaşması və inkişafı.Sığorta bazarı | 2 | 2 |
| 11. | Kredit münasibətləri. İnfilyasiyanın daxili və xarici amilləri | 2 | 2 |
| 12. | Yanacaq energetika sektoru və Azərbaycanın iqtisadi inkişafı | 2 | 2 |
| 13. | Azərbaycanda kənd təsərrüfatının aktual problemləri | 2 | 2 |
| 14. | Azərbaycanın  beynəlxalq iqtisadi əlaqələri. | 2 | 2 |
| 15. | Azərbaycanın neft müqavilələri. Azərbaycanın təbii sərvətləri, ekoloji mühit. | 2 | 2 |
| **Cəmi  60 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1*. Giriş. Azərbaycan iqtisadiyyatı fənninin predmeti və vəzifələri - 4 saat**

Azərbaycan iqtisadiyyatının bir elm kimi öyrənilməsi. Azərbaycanı milli müstəqilliyə aparan yol. Azərbaycan iqtisadiyyatı-cəmiyyətin mövcud olub yaşamasının və inkişafının əsası kimi. "Azərbaycan iqtisadiyyatı"nın tədqiqat obyekti və predmeti. Azərbaycan iqtisadiyyatının öyrənilmə metodları.

***Mövzu 2*. Azərbaycanda iqtisadi fikir tarixinə dair Azərbaycanın müstəqilliyəqədərki iqtisadiyyatının vəziyyəti - 4 saat**

Müxtəlif dövrlərdə Azərbaycanda iqtisadi fikir tarixi. Azərbaycan iqtisadiyyatı ittifaq iqtisadiyyatının tərkibində. SSRİ-yə daxil olan respublikalarla Azərbaycanın iqtisadi əlaqələrinin əhəmiyyəti. SSRİ-nin dağılması.

Müstəqil dövlətin meydana gəlməsi. İqtisadiyyatın böhran vəziyyətinə düşməsi.Bazar iqtisadiyyatına keçid böhran vəziyyətindən çıxış yolu kimi. Keçid dövründə Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifələr.

***Mövzu 3*. Azərbaycanın keçid dövrü iqtisadiyyatı.Mülkiyyət münasibətlərinin yenidən qurulması - 4 saat**

Keçid dövrünün mahiyyəti və zəruriliyi**.**Azərbaycanın keçid dövrünə daxil olması, qarşıda duran əsas vəzifələr.

Mülkiyyət haqqında ümumi məlumat, onun əsas və törəmə formaları. İctimai mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi əsasında müxtəlif mülkiyyət formaları və növlərinin meydana gəlməsi. Çoxnövlü mülkiyyət əsasında çoxukladlı iqtisadiyyatın formalaşması.

***Mövzu 4*. Özəlləşdirmə və sahibkarlığın inkişafı. Azərbaycanın yeni iqtisadi sistemi. İqtisadiyyatın yeni idarəetmə sistemi - 4 saat**

Özəlləşdirmə haqqında ümumi məlumat,məzmunu, mahiyyəti və həyata keçirilməsi**.** Azərbaycanda ilkin kapital yığımı. Azad sahibkarlığın inkişafı üçün şəraitin yaranması. Daxili və xarici bazar problemi. Azərbaycanın milli iqtisadiyyatının formalaşması.

İqtisadi sistem anlayışı. Azərbaycanın yeni iqtisadi sisteminin məzmunu. İqtisadi sistemin maddi-texniki bazası. İqtisadiyyatın idarə edilməsində yeni model.

***Mövzu 5*. Milli sərvətin strukturu və mahiyyəti.Milli gəlir- 4 saat**

Milli sərvətin mahiyyəti və strukturu**.** Milli sərvətin qorunması və artırıllması yolları. Ümumi ictimai məhsul və onun artırılması mənbələri.

Milli gəlir anlayışı. Respublikanın milli gəliri və onun xalqın mənafeyinə uyğun bölgüsü.

***Mövzu 6*. Azərbaycanın mikroiqtisadiyyatı.Gəlirlər və onların yenidən bölgüsü. Əmək haqqı - 4 saat**

Mikroiqtisadiyyat anlayışı.Azərbaycanın müstəqillik əldə etməsi və mülkiyyət subyektlərinin dəyişməsi. Dövlət müəssisələrinin mövcud vəziyyəti.Müəssisələrin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi.Sosial problemlərin həllində mikroiqtisadiyyatın rolu

Həyat səviyyəsi və yoxsulluq problemləri**.** Gəlirlərin dövlət tənzimlənməsi və əhalinin sosial müdafiəsi**.** Əmək haqqı və onun mahiyyəti.

***Mövzu 7*. Respublikanın istehsal və sosial infrastrukturu.Böyuk ipək yolunun bərpası - 4 saat**

Respublikanın infrastrukturları və onların inkişaf səviyyəsi. İstehsal infrastrukturunun müasir vəziyyəti və onun bazar tələblərinə uyğun şəkildə yenidən qurulması.Azərbaycanın sosial infrastrukturunun müasir vəziyyəti.

Böyük İpək Yolu”nun tarixi və bərpası.

***Mövzu 8*. TRASECA proqramı və regionda nəqliyyat kompleksinin inkişafı - 4 saat**

TRASECA proqramının yaranma və inkişaf tarixi. Regionda nəqliyyat kompleksinin inkişafında proqramın rolu. Proqrama üzv dövlətlər.

***Mövzu 9*. Azərbaycanın maliyyə sistemi.Dövlət büdcəsi və onun strukturu - 4 saat**

Maliyyə pul munasibətlərini əks etdirir. Azərbaycanın maliyyə sistemi və onun yenidən qurulmasının zəruriliyi. Dövlət maliyyəsi.

Dövlət büdcəsi maliyyə sisteminin əsas həlqəsidir.Respublikanın dövlət büdcəsi və onun strukturu. Büdcənin gəlirləri və xərcləri, büdcə kəsiri, büdcədən kənar fondlar. Vergi sistemi və vergi siyasəti.

***Mövzu 10*. Bank sektorunun formalaşması və inkişafı.Sığorta bazarı - 4 saat**

Azərbaycanın bank sistemi. Dövlət bankları, özəl banklar, beynəlxalq banklar (müştərək) Özəl sektorun inkişafında bankların tutduğu mövqe.

Sığorta sistemi və onun inkişafı.

***Mövzu 11*. Kredit münasibətləri. İnfilyasiyanın daxili və xarici amilləri - 4 saat**

Azərbaycanda bazar iqtisadiyyatı şəraitində kredit münasibətləri. Sahibkarlığın inkişafında kreditin rolu. Azərbaycanın pul tədavülünün təşkili.Milli valyutanın tətbiqi və dönərliyinin təmin edilməsi.Valyuta bazarının təşkili və tənzimlənməsi.

İnflyasiyanın daxili və xarici amilləri.Müasir dövrdə inflyasiyanın güclənməsi və onun respublika əhalisinin vəziyyətinə təsiri. İnflyasiyanın qarşısının alınmasına yönəlmiş dövlət tədbirləri.

***Mövzu 12*. Yanacaq energetika sektoru və Azərbaycanın iqtisadi inkişafı - 4 saat**

Respublikanın energetika sisteminin vəziyyəti və onun etibarlı bazasının yaradılması.Azərbaycanın neft və qaz ehtiyatları.Respublikanın elektroenergetika sahəsinin inkişafı.Enerji sektorunun Azərbaycan iqtisadiyyatının inkişafına təsiri.

Azərbaycanın iqtisadi inkişaf modeli: məzmunu, formalaşmasıvə qərarlaşması prinsipləri.

***Mövzu 13*. Azərbaycan kənd təsərrüfatının aktual problemləri - 4 saat**

Aqrar sənaye kompleksinin bazar strukturunun formalaşdırılması.Kənd təsərrüfatının aktual problemləri və onların həlli yolları.Respublikada yaradılan aqroparklar.

Aqrar islahat haqqında qanun və kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar. İnfrastruktur sahələrin iqtisadi inkişaf modelinə uyğun qurulması.

***Mövzu 14*. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri - 4 saat**

Beynəlxalq iqtisadi əlaqələrin obyektiv zəruriliyi və nəzəri əsasları, məzmunu, miqyası. Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlara daxil olmasının əhəmiyyəti.Azərbaycanın xarici ticarət əlaqələri.Ticarət əlaqələrinin genişləndirilməsi və respublikanın dünya bazarının subyekti kimi çıxış etməsi. Ticarət balansı.

Xarici ölkələrin Azərbaycana maraqları.Qonşu ölkələrlə iqtisadi əlaqələrin bərpası və genişləndirilməsi.

***Mövzu 15*. Azərbaycanın neft müqavilələri. Azərbaycanın təbii sərvətləri, ekoloji mühit- 4 saat**

Azərbaycanın neft müqavilələri: məzmunu və əhəmiyyəti. Xarici investisiya qoyuluşlarının əhəmiyyəti. "Əsrin müqaviləsi".Xarici əlaqələrin inkişafında neft amilinin rolu.

Azərbaycanın təbii sərvətləri, təbiətdən istifadənin iqtisadiyyatı və ekoloji mühit.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında sosial –iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri.Azərbaycan Respublikası Prezidentinin fərmanı,2003
2. İqtisadi nəzəriyyə. Dərslik 2008
3. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası.”Azərbaycan” nəşriyyatı 2006
4. Aslanov E.Yeni dünya nizamı və milli inkişaf..”Azərbaycan” nəşriyyatı 2006
5. Şəkərəliyev A.Ş.Azərbaycanın gömrük tarixi.Bakı.Elm nəşriyyatı.2000
6. Şəkərəliyev A.Ş. Keçid iqtisadiyyatı və dövlət ADNU-nun nəşriyyatı 2000
7. Zərifə Hüseynova “İqtisadi nəzəriyyə” Struktur məntiqi sxemlər.Bakı2007
8. Azərbaycan Respublikasının Vergi məcəlləsi.”Hüquq ədəbiyyatı”nəşriyyatı Bakı2007
9. Ş.Abdullayev Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması.Bakı, “Azərnəşr”, 2001
10. “Banklar və bank əməliyyatları”. Mübariz Bağırov 2003

Bakı İdarəetmə və Texnologiya kollecinin

müəllimi Zeynalova Reyhan Feyruz qızının

“ Azərbaycan iqtisadiyyatı ” fənni üzrə tərtib

etdiyi proqrama

*Rəy*

Demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşmasında dövlət hakimiyyətinin əks-mərkəzləşməsi başlıca yerlərdən birini tutur.Bu prosesdə yerli özünüidarəetmə institutlarının mühüm rol oynamağı şəksizdir.

Azərbaycanda yerli özünüidarə orqanları kimi bələdiyyələrin fəaliyyətindən 20 il vaxt keçir. Ötən illər ərzində bələdiyyələrin formalaşması və fəaliyyəti sahəsində xeyli tədbirlər həyata keçirilib.Belə ki, hazırda yerli özünüidarə institutları ilə bağlı qanunlar və normativ-aktlar qebul edilib. Qanunvericilik aktlarında bələdiyyələrin fəaliyyəti ilə bağlı müəyyən müddəalar nəzərdə tutulub. Bu baxımdan “ yerli özünuidarəetmə orqanı” fənninin tədrisi çox vacibdir. Fənnin tədrisinə hazırlanmış proqram tələbələrə bir çox məlumatların verilməsini öz üzərinə götürmüşdür.

Yuxarıdakıları nəzərə alsaq, proqramın kollecin daxili istifadəsi üçün yararlı dərs vəsaiti kimi qəbul olunmasını tövsiyyə edirəm

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

**Kollecin "____________________________" fənn birləşmə komissiyasının**

**"__________" _____________201_-ci il tarixli ___ saylı**

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Iştirak etdilər:**

1.____________
2._____________
3.______________
4.______________ .......

**Eşidildi:** _______________ qızı (oğlu) tərəfindən yazılmış "__________" fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi

**Qərar:**

"____________" fənni üzrə ____________________ tərtib etdiyi proqram tədris üçün məqsədəuyğun hesab edilərək bəyənilsin. Proqram təsdiq olunmaq üçün Kollecin pedaqoji şurasının müzakirəsinə verilsin.

"_______________________"
fənn birləşmə komissiyasının sədri: ________

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

Pedaqoji şuranın “_____” ________201_-ci il tarixli__________saylı

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Gündəlik məsələ:**

“_____________” fənn birləşmə komissiyasının üzvü ____________ qızı(oğlu) tərəfindən yazılmış “____________” fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi.

**Qərar:**

Kollecin müəllimi __________________ qızı(oğlu) tərəfindən yazılmış “_____________” fənni üzrə proqrama qrif almaq üçün rəy verilməsini Azərbaycan Respublikası Təhsil Nazirliyindən xahiş edirik.

Bakı İdarəetmə və Texnologiya kollecinin direktoru: ____________

Pedaqoji Şuranın katibi: Ruxsarə Nəsibova